# V Türk dünyası yazarlar qurultayı keçirilib




Qurultayda müxtəlif ölkələrdən 100-ə yaxın elm xadimi, şair və yazıçı iştirak edib.

"İLESAM"ın rəhbəri, yazıçı-şair Mehmet Nuri Parmaksız qonaqları salamlayıb, qurultayın məqsəd və gələcək planlarından bəhs edib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək bundan əvvəlki dörd Türk dünyası yazarlar qurultayını xatırladıb, ötən illərin ədəbi əlaqələrini yada salıb. Ənənələrin davam etdirilməsinin uğurlu addım olduğunu vurğulayan Anar müəllim 44 günlük haqq savaşımızda qazanılan parlaq qələbədən bəhs edib, Zəfər günü ərəfəsində belə bir qurultayın keçirilməsinin sevincini bölüşüb və fəxarət hissi ilə qeyd etdiyi bu fikirlər alqışlarla qarşılanıb: "Mən xoşbəxtəm ki, zəfər çalmış Azərbaycanı təmsil edirəm".

Açılış mərasiminin ardınca seksiyalar öz işinə başlayıb.

Seksiyalarda Azərbaycandan gələn qonaqlara da yer verilib. Qurultayda Xalq yazıçı Anarla yanaşı, Azərbaycan Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini, yazıçı-şair Rəşad Məcid, Səyyad Aran, AYB-nin mətbuat katibi, yazıçı-şair Xəyal Rza, Kamran Nəzirli, Əyyub Qiyas, Zemfira Məhərrəmli, Nəzakət Məmmədli, Ulucay Akif, Nadir Yalçın iştirak ediblər.

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 18 noyabr.- № 44.- S. 4.